**TURKPA**

**PARLIAMENTARY ASSEMBLY OF TURKIC-SPEAKING COUNTRIES**

**İQTİSADİYYAT, TİCARƏT VƏ MALİYYƏ MƏSƏLƏLƏRİ ÜZRƏ KOMMİSSİYANIN ÜÇÜNCÜ İCLASI**

**İQTİSADİ ƏMƏKDAŞLIQ SAHƏSİNDƏ NƏQLİYYAT KOMMUNİKASİYALARININ ROLUNA DAİR**

**TÖVSİYƏ QƏRARI**

İqtisadi, sosial, ekoloji və təhlükəsizlik tələblərinə cavab verən, rəqabətli iqtisadi mühiti, dinamik və hərtərəfli iqtisadi əməkdaşlığı, həmçinin əhalini dinamik infrastrukturla təmin edən nəqliyyat xətlərinin inkişafını və müasir zamanın tələblərə uyğunlaşdırılmasını *həyata keçirərək*;

Nəqliyyat və regional infrastruktur şəbəkələrinin yaradılması sahəsində TÜRKPA üzv ölkələri arasında əməkdaşlığın möhkəmləndirilməsini *alqışlayaraq;*

Nəqliyyat infrastrukturunun inkişafında Türkdilli ölkələrin son fəaliyyətini *nəzərə alaraq*;

3 iyul 2013-cü il tarixdə, Bakı şəhərində keçirilmiş Nəqliyyat Nazirlərinin birinci toplantısında Türkdilli dövlətlərdə nəqliyyatın inkişafı sahəsində əməkdaşlığa dair Birgə Protokolun imzalanması və qəbul edilməsini *alqışlayaraq;*

Gömrük xidmətləri arasında əməkdaşlığın gücləndirilməsinə yönəlmiş səyləri dəstəkləyərək, eyni zamanda işçi qrupunun yaradılmasını və gömrük xidmətləri rəhbərlərinin birinci və ikinci görüşlərinin keçirilməsini məqsədəmüvafiq *hesab edərək*;

Turizm sahəsində əməkdaşlıq məsələləri mövzusunun 2014-ci ilin iyun ayında Türkiyədə keçiriləcək Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının növbəti 4-cü Zirvə toplantısının əsas maddəsi olacağını *nəzərə alaraq*;

Türkdilli dövlətlər arasında Türk Şurasının coxtərəfli əməkdaşlığa əsaslanan hər üç zirvə toplantısını *alqışlayaraq*;

Üzv ölkələr arasında səmərəli, təhlükəsiz inteqrasiya olmuş, dayanıqlı nəqliyyat sistemlərinin təşviqi üçün birgə səylərin fəallaşdırılması niyyətini vurğulayaraq;

Beynəlxalq maliyyə qurumlarının nəqliyyat infrastrukturunun inkişafına yönəlmiş təşəbbüs və proqramlarını *dəstəkləyərək*;

Nəqliyyat infrastukturunun inkişaf etdirilməsində Türk Şurasının təşəbbüslərinin hüquqi dəstəklə təminatına bağlılığını bir daha *təstiqləyərək*;

TÜRKPA üzv ölkələrinin parlament və hökumətlərinə **tövsiyyə edir:**

1. Üzv dövlətlərin nəqliyyat xidmətləri ilə bağlı hüquqi və texniki prosedurlarının daha da asanlaşdırılmasını, həmçinin nəqliyyat və gömrük qanunvericiliyinin yaxınlaşması və BMT-nin müqavilələri və konvensiyalarına əsaslanan standartlar və texnologiyaları ilə uyğunlaşdırılmasını *təmin etmək*;
2. Nəqliyyat sisteminin üç kriteriyası olan: vaxtı, qiyməti və təhlükəsizliyi optimallaşdıran nəqliyyat xidmətlərinin keyfiyyətini *yüksəltmək*;
3. Dövlət sərhədlərindən keçən yük daşımalarını asanlaşdırmaq, həmçinin TRACECA-nın regional "İPƏK KÜLƏK" layihəsinin praktiki olaraq həyata keçirilməsinə *dəstək vermək*;
4. Tranzit potensialının artırılması ilə yanaşı, maddi-texniki sistemlərin təkmilləşdirilməsinə yönəldilmiş birgə fəaliyyətləri *təşviq etmək*;
5. Ekoloji cəhətdən daha təhlükəsiz nəqliyyat vasitələrinin inkişafı sahəsində *əməkdaşlıq etmək*;
6. Region dövlətlərinin milli təhlükəsizliyinin təmin olunması və enerji ehtiyatlarının təhlükəsiz daşınması nəzərə alınaraq, nəqliyyatın bütün növlərinin təhlükəsizliyinə dair əlaqələndirici fəaliyyəti *dəstəkləmək*;
7. Regional cəhətdən inteqrasiya olunmuş çoxfunksiyalı nəqliyyat şəbəkəsi çərçivəsində beynəlxalq sərnişin və məhsulların daşınmalarının təşviqinə yönəlmiş fəaliyyətləri *gücləndirmək*;
8. TURKPA üzv dövlətlərinin, beynəlxalq təcrübəyə əsaslanan və nəqliyyat əlaqələrinin genişlənməsinə xidmət edən, nəqliyyat şəbəkələrinin aşağıdakılardan ibarət olan ümumi məlumat bazasını *yaratmaq*:

a) Regionda nəqliyyat şəbəkələrinin inkişaf dinamikasının qiymətləndirilməsi və mövcud infrastrukturun təkmilləşdirilməsi və genişləndirilməsi məqsədilə birgə layihələrin nəzərdən keçirilməsi.

b) Müasir nəqliyyat infrastrukturunun inşası və istismarında özəl sektorun iştirakı üçün əlverişli olan investisiya şərtlərinin təhlili.

9. Üzv dövlətlərin gömrük orqanları arasında, nəqliyyat vasitələrinin tranzit keçmə prosedurlarının, həmçinin bu orqanlar arasında qarşılıqlı məlumat mübadiləsinin sadələşdirilməsinə yönəlmiş mexanizmlərin müasir informasiya texnologiyaları əsasında *inkişaf etdirilməsi*;
10. Nəqliyyat vasitələrinin və yüklərin maneəsiz olaraq dövlət sərhədlərindən keçirilməsinin mükəmməlləşdirilməsi, həmçinin bu sahədəki çoxtərəfli əməkdaşlığa təsir göstərən, nəqliyyat və yük daşıması zamanı mütəmadi yaranan problemlərin öyrənilməsi məqsədi ilə, TÜRKPA milli parlamentlərinin nümayəndə heyətləri üzvlərinin, nəqliyyat və yükdaşımalar sahəsində Dövlət Agentliklərinin və TÜRKPA üzv dövlətlərin aidiyyati Birliklərinin nümayəndələrinin iştirakı ilə mütəmadi *toplantılar keçirmək*;